Yeni nəşrlər

# Söz var ki...

## Vətənə, xalqa, torpağa məhəbbət, sevgiyə inam "Həsrətimin yaşı dünya qədərdir" kitabındakı şeirlərin əsas qayəsidir




**Kitab oxumaq, əslində, sadəcə, mütaliəni sevmək deyil. Kitaba bağlılığı filosoflar iki cəhətdən izah ediblər. Birincisi, kitab oxumaq mədəniyyətdir. Hər kəs mütaliyə ilə həm dünyagörüşünü artırır, həm zövqünü formalaşdırır, həm də kamillik zirvəsinə ucalmağın bir yolunu da tapır. İkincisi isə, deyirlər ki, əlində qələm, qəlbində hələ dil açmamış kəlamları olanlar da fitrətdən sözə vurğun yaranırlar. Onlar kitab oxumağa həvəsli, hətta fanat da ola bilirlər.**

Kitabları ilə geniş oxucu auditoriyasında çoxdan imzasını tanıdan və sevdirən müəlliflərdən biri də Milli Məclisin deputatı, şair-publisist Tahir Rzadır. O, bu günlərdə oxucu görüşünə daha bir yeni - "Həsrətimin yaşı dünya qədərdir" kitabı ilə gəlib.

Tahir Rzayev (Tahir Rza) ictimai-siyasi fəaliyyəti ilə yanaşı, uzun illərdir elmi-bədii yaradıcılıqla da məşğuldur. Çoxsaylı məqalələrin, 20-dən artıq kitabın müəllifidir.

Vətənə, xalqa, torpağa məhəbbət, insanlığa hörmət və sədaqət, nadanlığa, zülmə, yalana nifrət, haqqa-ədalətə çağırış şairin şeirlərinin əsas qayəsi və mövzusudur.

Möhtəşəm Qələbəmizdən öncə və sonra qələmə alınmış şeirlərində müəllifin torpaq həsrəti duyulmaqla bərabər, həm də daha böyük zəfərlərimizə inam əks olunur.

Maraqlıdır, özü neçə-neçə kitabın müəllifi olan şair mütaliəni necə, sevirmi? Bu suala Tahir Rzanın cavabı maraqlıdır: "Hər gün mütaliə etmək insanın dünyagörüşünü formalaşdırması baxımından əhəmiyyətlidir. Nəinki gündəlik mətbuatı izləmək, müxtəlif xəbərlərlə tanış olmaq, həm də bədii ədəbiyyat oxumaq normal insanın ənənəvi tələbatıdır. Gündəlik bir neçə qəzeti oxumadan, internetdən, sosial şəbəkələrdən xəbərləri izləmədən keçinə bilmirəm. Maraqlı yazıları təhlil edirəm. Özüm də müntəzəm olaraq bədii-publisist məqalələrlə qəzet səhifələrində çıxış edirəm. Qanun yaradıcılığı, insanlarla görüşlər, müxtəlif tədbirlər vaxtımın çoxunu alsa da, bədii yaradıcılığı, yeni əsərləri mütaliə etməyi də unutmuram. Bu il iki kitabım işıq üzü görüb. Elmi, bədii-publisist məqalələrim çap olunub".

Şairin yeni nəşrinin də seviləcəyi və oxunacağına şübhə yoxdur. Çünki bu kitabda bir-birindən dəyərli, aktuallığı ilə oxucunu daha çox çəkən mövzular lirik düşüncələrlə müşahidə olunur.

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 23 oktyabr.- S.10.